Azərbaycanın vergi xəbərləri

UOT 658:334:339.94 (479.24)

# Azərbaycanın sovetləşdirilməsinin ilk illərində N.Nərimanovun ictimai-siyasi hadisələr kontekstində iqtisadi idarəetmə mexanizmlərinin təşkilində rolu və iqtisadi mühakimələri



**Səməndərov Seyfəddin Sabir oğlu***
iqtisad elmləri üzrə fəlsəfə doktoru

## Xülasə

*Tədqiqatın məqsədini* - Azərbaycan Respublikasında XX əsrin 20-ci illərinin əvvəllərində görkəmli dövlət xadimi N.Nərimanovun iqtisadi mühakimələrinin öyrənilməsi təşkil edir.

*Tədqiqatın metodologiyasını* - deduksiya, tarixi yanaşma, müqayisəli təhlil.

*Tədqiqatın nəticəsi* - tarixi və iqtisadi irsin öyrənilməsinə xidmət edir.

*Tədqiqatın məhdudiyyətləri* - tədqiqat obyektinin spesifikliyinə əsasən özündə tarixi gerçəkliyi əks etdirən faktların əldə olunması imkanları ilə əlaqədardır.

*Tədqiqatın praktiki əhəmiyyəti* - göstərilən prinsiplər əsasında yeni iqtisadi mexanizmlərinin işlənməsində tarixi irsdən yararlanmaqdır.

*Tədqiqatın orijinallığı və elmi yeniliyi* - tədqiq sferasındakı bir sıra faktlar ilk dəfə olaraq elmi dövriyyəyə çıxarılır.

**Açar sözlər:** *Azərbaycan iqtisadiyyatı, iqtisadi tarix, çanaq vergisi, natural vergi.*

## 1. Giriş

1920-ci il aprelin 28-də Cümhuriyyət ərazisində Azərbaycan Sovet Sosialist Respublikasının (*Azərbaycan SSR*) yaradıldığı, ölkədə bütün hakimiyyətin Müvəqqəti İnqilab Komitəsinin və Azərbaycan SSR Xalq Komissarları Sovetinin əlinə keçdiyi elan olundu. Xalq Komissarları Sovetinə N.Nərimanov başçılıq edirdi. Lakin real hakimiyyət Azərbaycan Kommunist (*bolşeviklər*) Partiyasının - AK(b)P-nin əlində

*AMEA-nın İqtisadiyyat İnstitutu. Bakı, AZ 1143. H.Cavid prospekti,31.



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

idi. Bolşevik rejimi müstəqil dövlətçilik ənənəsini, milli mənlik ruhunu əhalinin şüurundan çıxarmaq üçün xalqın mənəviyyatına qarşı hücuma keçdi. Zorakı “dövlət quruculuğunun” mühüm atributlarının çox böyük sürətlə yaradılmasına başlanıldı və Moskvadan asılı diktatura bərqərar oldu. Azərbaycan xalqı özünün müstəqil hakimiyyətindən məhrum edildikdən sonra onun sərvətlərinin talan olunmasına, torpaq üzərində xüsusi mülkiyyətin ləğv edilməsinə, ölkənin bütün təbii sərvətlərinin milliləşdirilməsinə, mülkiyyətin dövlət inhisarına alınmasına başlanıldı. Azərbaycanın neft sənayesini idarə etmək üçün xüsusi olaraq Neft Komitəsi yaradıldı və bu komitəyə rəhbərlik mərkəzdən Bakıya göndərilmiş A.P.Serebrovskiyə tapşırıldı. Təbii ki, çox böyük amallarla inqilabi hərəkata cəlb olunan Azərbaycan ziyalısı, siyasi dünyagörüşündən asılı olmayaraq baş verən hadisələrə biganə qala bilməzdi. N.Nərimanov və bir qrup Azərbaycan ziyalıları, dövlət və ictimai-siyasi xadimləri milli maraqların qorunması üçün ciddi fəaliyyət göstərirdilər. Qeyd etmək lazımdır ki, 20-ci illərdən başlayaraq azərbaycançılıq ideyası və dünyagörüşü varlıq savaşının ciddi mərhələsinə daxil oldu.

Məhz bu baxımdan N.Nərimanovun vergi məsələləri də daxil olmaqla ictimai-iqtisadi problemlərlə əlaqədar fikir və mülahizələri, iqtisadi baxışlarının öyrənilməsi ciddi əhəmiyyət kəsb edir.

## 2. N.Nərimanovun həyatı və yeni iqtisadiyyat quruculuğu sahəsindəki fəaliyyətinə dair tarixi faktlar

Nəriman Nəcəf oğlu Nərimanov yazıçı, publisist, həkim, ictimai-siyasi xadim - 14 aprel 1870-ci ildə Tiflis şəhərində varlı əsilzadə ailəsində anadan olmuşdur. O, 1894-cü ildə Bakıda müsəlman kütlələri üçün ilk xalq qiraətxana-kitabxanası təşkil etmişdir. Bu zaman Nərimanov ictimai problemlərə toxunduğu “Nadanlıq” (*1894*), “Şamdan bəy” (*1895*), “Nadir Şah” (*1899*), “Bahadır və Sona” (*1896-1908*) kimi ədəbi əsərlər yazmış, N.V.Qoqolun “Müfəttiş” komediyasını Azərbaycan dilinə tərcümə etmiş (*1899*), Azərbaycan və rus dillərini öyrənənlər üçün dərsliklər tərtib etmişdir. N.Nərimanov 1890-cı ildə Qori seminariyasını, 1908-ci ildə Novorosiysk (Odessa) Universitetinin tibb fakültəsini bitirmiş, 1905-ci ildən Rusiya Sosial Demokrat Fəhlə Partiyasının (*RSDFP*) sıralarına daxil olmuşdur. Nərimanov «Hümmət» partiyasının yaradıcılarından biri hesab olunur. O, 1906-cı ildə Bakıda İran sosial-demokrat qrupunun yaradılmasında da iştirak etmiş, 1916-1917-cı illərdə Hümmət partiyasına rəhbərlik etmiş, RSDFP-nin Bakı Komitəsinin üzvü olmuş, 1918-ci ildə Bakı Komunasının hakimiyyəti zamanı Xalq Komissarları Sovetinin tərkibinə daxil olmuşdur [13, s. 203].

Qeyd etmək lazımdır ki, 1920-ci il aprel çevrilişi öncəsi N.Nərimanov bolşeviklərin iqtisadi tədbirlərinin artıq iflasa uğrayacağını öncədən duyarcasına 1919-cu ildə Moskvada Rusiya Kommunist bolşevik Partiyasının Mərkəzi Komitəsindəki

(RK(b)P) məruzəsində bəyan edirdi ki, Azərbaycanın sovetləşməsi zamanı biz Rusiyada buraxılmış səhvlərə yol verməməliyik, yerli şəraitlə hesablaşmalıyıq. O, iri sənayenin fəhlə-kəndli hökumətinin əlində saxlanılmasının vacibliyini təsdiq etməklə yanaşı, qəti surətdə bildirirdi ki, xırda sənayeyə toxunmamalı, ticarətə icazə verməliyik [6, s.175]. Təbiidir ki, bu bəyanatdan ancaq iki il keçdikdən və çox böyük siyasi polemikalardan sonra mərkəzi kommunist rəhbərliyi məcburən sözügedən mühakimələrin zəruriliyini anlamalı oldu hərbi kommunizm siyasətindən, siyasi-inzibati radikalizmdən Yeni İqtisadi Siyasətə, iqtisadi idarəetmə prinsiplərinə keçməyi qəbul etməli oldu.

Bu xüsusda qeyd etmək lazımdır ki, 1920-ci il aprel çevrilişindən sonra Azərbaycanda ali icraedici orqan Azərbaycan SSR Xalq Komissarları Soveti idi. Azərbaycan SSR Xalq Komissarları Sovetinin tərkibinə 17 komissarlıq daxil edilmişdi. N.Nərimanov Xalq Komissarlarının sədri vəzifəsinə seçildi [10, c. III, h.1, s. 284]. 1920-ci ilin mayında O, Azərbaycan Müvəqqəti Hərbi İnqilab Komitəsinin sədri təyin edilib [1, s. 153]. N.Nərimanovun 1920-ci il sentyabrın 30-dan oktyabrın 14-nə kimi respublikanın bir sıra şəhər və kəndlərinə (*Ucar, Göyçay, Gəncə, Tovuz, Yevlax, Şuşa, Ləki, Kürdəmir*) səfəri olmuşdur. Bu səfərdə N.Nərimanovu Azərbaycan Xalq Torpaq Komissarı S.Ağamalıoğlu, Xalq Ədliyyə Komissarı T.Əliyev, Xalq Ərzaq Komissarlığının nümayəndəsi Ə.Zeynallı və b. müşayət edirdilər [2, s. 78, №2, 1990]. Bu zaman diqqətimizi maraqlı tarixi faktlar qismində iqtisadi idarəetmə məsələlərinin həlli ilə əlaqədar N.Nərimanovun fəaliyyəti cəlb edir.

Qeyd etmək lazımdır ki, 1920-ci ildə iyunun 9-da Azərbaycan İnqilabi Komitəsi Bankların Milliləşdirilməsi haqqında dekret qəbul etdi. Dekretdə 1) Bank işinin dövlət inhisarına keçməsi; 2) Azərbaycan ərazisindəki bütün bankların və bank təsisatlarının Azərbaycan Dövlət Bankının sərəncamına verilməsi; 3) ləğv edilmiş bankların aktiv və passivlərinin dövlət bankının ixtiyarına keçməsi; 4) özəl bankların dövlət bankı ilə birləşməsi qaydaları üçün xüsusi qanunun qəbul ediləcəyi; 5) özəl bankların müvəqqəti idarə edilməsinin Azərbaycan İnqilabi Komitəsi tərəfindən təyin edilmiş və təlimatlandırılmış Komitə üzvləri tərəfindən həyata keçirilməsi; 6) əmanət sahiblərinin maraqlarının qorunmasının müəyyən edilmiş xüsusi qaydalar əsasında gerçəkləşdiriləcəyi bəyan olunurdu [11, 2 c., s. 297]. Bu dekret Azərbaycan İnqilabi Komitəsinin sədri N.Nərimanov tərəfindən imzalanmışdır.

Daha sonra Azərbaycan İnqilabi Komitəsinin, Xalq Komissarları Sovetinin və Xalq Ərzaq Komissarlığının 1921-ci il 1 oktyabr "Çanaq vergisinin[1] alınması qaydalarını əks etdirən Əsasnamə" diqqəti cəlb edir. Burada aşağıdakı qaydalar nəzərdə tutulurdu:

[1] "Çanaq" kəndlilərin ərzaq vergisi əvəzinə ödəməli olduqları 20 funt - girvənkə (funt (girvənkə) - Girvənkə ən çox işlədilən çəki vahidlərindən biri idi. Bir girvənkə 400 q-a bərabərdir. Çəkisi 400 q olan çəki daşına da girvənkəlik daş deyilirdi. Vaxtilə girvənkə daha çox ərzaq ticarətində işlədilmişdir. Girvənkə həm də su ölçü vahidi kimi işlədilmişdir) taxıl həcmində natural vergi formasıdır. Bolşeviklər bu verginin çoxmillətli proletar şəhəri ilə Azərbaycan kəndliləri arasında ittifaqın güc-lənməsinə xidmət etməsi ideyasını təbliğ edirdilər. [Азизбекова П.А.(составитель) и Гулиев Д.П. (ред.) "Нариман Нариманов. Избранные произведения" (в трех томах), Баку, 1989, т. 2. 768 с.,] с. 688.

1.Azərbaycan SSR-də ordunun, şəhərdəki fəhlələrin və qeyri əkinçi işçi kütləsinin minimal ərzaq məhsulları ilə təmin edilməsi üçün məcburi qaydada və qiyməti ödənilmədən 1921-ci il məhsulundan çanaq vergisinin tutulması qərara alınır.

2.Çanaq vergisinin yığılması İcraiyyə Komitəsinin yerli orqanlarına tapşırılır, işə ümumi nəzarət isə Azərbaycan İnqilabi Komitəsinin və Xalq Komissarları Sovetinin tabeçiliyində idi.

3.Çanaq taxıl məhsullarından alınır, bu məhsullar olmadıqda müəyyən edilmiş normada digər dənli bitkilərdən alınır; Lakin heç bir dənli və taxıl bitkiləri olmadıqda kartof və ət məhsulları vasitəsi ilə çanaq vergisi ödənilməlidir.

4.Dövlətə verilməli olan məhsullar dəqiq və vaxtında çatdırılmalıdır.

5.Çanaq vergisinin ən son ödəniş müddəti 1921-ci il dekabrın 1-dən gec olmamalıdır. Əlavə: İcraiyyə Komitələri Azərbaycan İnqilabi Komitəsi ilə razılaşdırmalardan sonra ödəniş müddətlərini qısalda da bilərlər.

6.Çanaq vergisinin ödənilməsi zamanı hər vergi ödəməli olan şəxs öz öhdəsinə düşən verginin ödənilməməsi üçün məsuliyyət daşıyır, yerli sovet hakimiyyəti orqanları həmin şəxslərə müəyyən cərimələr tətbiq edə bilərlər.

7.Yığılmış çanaq vergisi dərhal Bakı şəhərinə, Azərbaycan İnqilabi Komitəsi və Xalq Komissarları Sovetinin ünvanına göndərilir və Ərzaq Komissarlığının anbarlarında saxlanmaq üçün təhvil verilir.

Çanaq vergisində məhsulların ödəniş nomenklaturası aşağıdakı cədvəldə öz əksini tapmışdır.

**Cədvəl. Çanaq vergisində məhsulların ödəniş nomenklaturası**

| **Çanaq vergisində ödənilməli olan əsas məhsulun adı** | **I qrup** | | **II qrup** | | **Əlavə** |
|---|---|---|---|---|---|
| | ***Taxılın kifayət qədər olmadığı halda ödənilməli olan digər məhsullar*** | | ***Ərzaq məhsullarının kifayət qədər olmadığı halda ödənilməli olan məhsullar*** | | |
| Taxıl 20 funt | Arpa<br>Darı<br>Noxud<br>Düyü<br>Çəltik | 40 f<br>30 f<br>25 f<br>18 f<br>36 f | Kartof<br>ət | 40 f<br>10 f. | Taxıl I və II qrupa daxil olan məhsullarla əvəz oluna bilər |

*Mənbə: Нариман Нариманов. "Избранные Произведения" (в 3-х томах), Баку: "Азернешр", 1989, том 2, 768 с.*

Bu dekretin əhəmiyyəti ondan ibarət idi ki, əsassız təkrar yoxlama və müsadirələr əvəzinə, verilmiş dekretə əsasən vergi ödəməli olan şəxslərin dəqiq vergi öhdəlikləri qanunla müəyyən ölçülərdə təsbit olunurdu.

Qeyd etmək lazımdır ki, 1921-ci il 1 oktyabr Əsasnaməsi Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin sədri M.Hacıyev, Xalq Komissarları Sovetinin sədri N.Nərimanov, Xalq Ərzaq Komissarlığının sədri Q.Musabəyov tərəfindən imzalanmışdır.

N.Nərimanovun iqtisadi idarəetmə işlərinin təşkilində fəaliyyətini əks etdirən digər maraqlı faktlar Azərbaycan İnqilabi Komitəsinin qərarı ilə Azərbaycan SSR Ali İqtisadi Şurasının yaradılması ilə əlaqədardır. Sözügedən dekret 1921-ci ildə yanvarın 14-də mətbuatda dərc olundu. "Əsasnaməyə" görə Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri eyni zamanda Ali İqtisadi Şuranın sədri vəzifəsini təyin olunurdu. Lakin ilk əvvəllər bu vəzifədə Azərbaycan İnqilabi Komitəsi və Xalq Komissarları Sovetinin müavini çalışırdı. Sonradan 1921-ci il 14 noyabr dekretinə əsasən Ali İqtisadi Şuranın sədri vəzifəsinə N.Nərimanov təyin olundu. O, bu vəzifədə 1922-ci ilin mart ayına kimi Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının rəhbər vəzifələrindən birini daşıyana kimi çalışmışdır [12, s. 40].

Göründüyü kimi, N.Nərimanov Azərbaycanın sovetləşməsinin ilk illərində Xalq Komissarları Sovetinin sədri, eyni zamanda, Azərbaycan KP MK Siyasi Bürosunun üzvü və Ali İqtisadi Şuranın sədri olmuşdur. Burada daha çox diqqətimizi N.Nərimanovun Ali İqtisadi Şuranın işinin təşkili ilə əlaqədar fəaliyyətini əks etdirən faktlar cəlb edir. Ümumiyyətlə Ali İqtisadi Şuranın təşkilatı quruluşu aşağıdakı kimi idi. Buraya rəyasət heyəti, katiblik, sənaye və istehsal idarəsi, bölgü və mühasibat idarəsi (bölgü komssiyası), ümumi inzibati idarə, sonradan tərkibində 6 seksiyası olan ümumi plan komissiyası daxil idi. Ali İqtisadi Şuranın plenumlarına və Rəyasət Heyətinin iclaslarına N.Nərimanov başçılıq edirdi. İclasların müddəti ciddi reqlamentə tabe edilmişdi və hər iclasda 6-11 məsələ müzakirə olunurdu [12, s. 42].

N.Nərimanovun sovet hakimiyyətinin ilk illərində xalq təsərrüfatı məsələlərinin həlli ilə əlaqədar fəaliyyətinə gəldikdə qeyd etmək lazımdır ki, 1921-ci ildə oktyabrın 19-da O, V.İ.Leninə göndərdiyi məktubda şollar su kəmərinin nasoslarla təmin edilməsi üçün arqument kimi yerli əhalinin içməli su tələbatının ödənilməsini deyil, neft sənayesinin həmin nasoslara olan ehtiyacını göstərərək nasos və digər avadanlıqların alınması üçün icazə istəyirdi [1, s. 161]. 17 noyabr 1921-ci ildə isə V.İ.Leninə ünvanladığı məktubda Nərimanov hələ çar hakimiyyəti dövründə yüksək vəzifə tutmuş, sonradan bolşeviklərin təchizat sistemi ilə məşğul olmuş L.B.Krasinin teleqramına əsasən Bakı su kəməri üçün üç dizel nasosunun alınması üçün 300 min qızıl manatın Berlinə köçürülməsini xahiş edir, bu avadanlıqlar olmadan Bakının su təchizatı təmin olunmayacağı, neft çıxarılması işi dayanacağı fikri əsaslandırılırdı [1, s. 161; 12, II c, s. 656]. Bu avadanlıqlar Bakıya gəlib çıxdı. Onların tətbiqi işinə M.Hacıyev rəhbərlik edirdi [1, s. 164].

Yeni İqtisadi Siyasətə keçid az rentabelli və fəaliyyət göstərməyən müəssisələrin icarə və ya konsessiyaya verilməsi məsələsini gündəmə gətirmişdi. Buraya biyan kökü, toxuculuq müəssisələri və balıq sənayesi müəssisələri daxil idi. 1922-ci ildə yanvarın 2-də Ali İqtisadi Şurada biyan kökü emal edən müəssisənin əvvəlki sahibinə konsessiyaya verilməsi müzakirə olunarkən N.Nərimanov çıxış edərək bildirdi ki, müəssisənin qaytarılması siyasətimizin uğursuzluğu kimi başa düşülməməlidir və konsessiyaların verilməsi ancaq mərkəzi hakimiyyət orqanlarının razılığına əsasən

həyata keçirilməlidir [12, s. 43]. N.Nərimanov neft sənayesi müəssisəsi və mədənlərinin bir hissəsinin xarici investorlara konsessiyaya verilməsinin, Qərbi Avropadan yeni avadanlıqların əldə edilməsinə imkan yaratdığını söyləmişdir [9, s.1 07-108]. O, 1921-ci ildə fəhlə-kəndli, qızıl əsgər və dənizçi deputatların Ümumazərbaycan qurultayındakı nitqində konsessiyalarla əlaqədar demişdir ki, burjuaziyadan lazım olan hər şeyi götürməli, öyrənməliyik. Konsessiyalar haqqında söhbət o, mənada gedir ki, biz bütövlükdə neft olan ərazini ingilis, belçika, hollandlara verməliyik və ya yox, Bibiheybət ərazisinin xarici kapitalsitlərin istifadəsinə vermək istəyirik. Bununla biz özümüzə yol açıb qəbristanlığı dirçəltməyin, bərpa etməyin üsulunu tapmış oluruq. Biz burjuaziyanın köməyindən istifadə edib sənayemizi bərpa və hakimiyyətimizi 3-4 ilə möhkəmlədə bilsək, konsessiyalar haqqında bağladığımız müqaviləni bir tikə kağız parçasını cırıb atarıq [7, s. 57, №1, 1970]. Qeyd etmək lazımdır ki, ingilis "Royal-Datç" və Amerikanın "Standart oyl" şirkətlərinin ciddi səylərinə baxmayaraq sovet dövləti bu şirkətlərə neft mədənlərinin konsessiyaya verilməsinə icazə verməmişdi [8, s. 66, №2, 1971].

1921-ci ildə dekabrın 27-də keçirilən Ali İqtisadi Şuranın növbəti iclasında Zaqafqaziya dəmir yolu vasitəsi ilə  yük daşınmalarında praktiki məsələlərin həll edilməsi üçün İttifaq Şurasının yaradılması məsələsi gündəmə gətirildi və sözügedən qurumun yaradılmasının vacibliyinin əsaslandırılmasına yönəldilən fikirlər səsləndi. Daha sonra 1922-ci ildə yanvarın 4-də N.Nərimanovun sədrliyi ilə keçirilən iclasın gündəliyinə 8 məsələnin müzakirəsi daxil edilmişdi. Buraya "Pambıq Komitəsinin yaradılması", "Balıq vətəgələrinin icarəyə verilməsi", "Dəmir yolu nəqliyyatındakı vəziyyət", "Tif xəstəliklərinin müalicəsi ilə əlaqədar tibbi qurumların işçilərinin sayının artırılması", "Su kəmərinin çəkilməsi" məsələlərinin müzakirəsi ilə əlaqədar qəbul edilən qərarlar göstərilə bilər. 1922-ci ildə yanvarın 10-da Ali İqtisadi Şuranın iclasında N.Nərimanov Azərbaycanın qəza məktəblərində çalışan müəllimlərin əməkhaqlarının artırılması təklifi ilə çıxış etmişdi [12, s. 44]. Sonra diqqətimizi 1922-ci ildə yanvarın 31-də keçirilən Ali İqtisadi Şuranın iclası cəlb edir. Bu zaman iclasın gündəliyinə 11 məsələ daxil edilmişdi. Buraya "Gilan[2] xəstəxanalarının ehtiyacları üçün 5 min pud kerosinin ayrılması", "Fəaliyyətini dayandırmış müəssisələrin milliləşdirilməsi", "Azərbaycan dilində dərsliklərin nəşr edilməsi", "Neftlə zəngin boş torpaqların istismarı", "Fəhlələrin təchizatı", «Pambıq sənayesi" məsələləri daxil edilmişdi. Müzakirələr zamanı N.Nərimanov məruzə ilə çıxış etmişdir. 1922-ci ildə fevralın 5-də gündəliyə 7 məsələ daxil edilmişdi. Buraya "Valyuta fondu", "Avtomobil nəqliyyatındakı vəziyyət", "Şamaxı və Göyçay qəzalarında üzümçülük və şərabçılığın inkişaf etdirilməsi üçün müvafiq təsərrüfatların inventar təchizatı", "Gürcüstanda nümayəndəliyin təşkili", "Türküstana neftin daşınması", "Naxçıvan diyarında vəziyyət və əhaliyə yardımların  göstərilməsi haqqında" məsələlər daxil edilmişdi.

[1] Gilan İranın inzibati bölgüsündə Cənubi Azərbaycan ostanlarından biridir.

1922-ci ildə martın 14-də keçirilən iclasda N.Nərimanov "İşsiz fəhlələrə pulsuz su verilməsi", "Fəhlə və qulluqçulara pulsuz kommunal xidmətlərin göstərilməsi", "Respublikanın qəzalarındakı əhalinin neft məhsulları ilə təchiz edilməsi", "Əlil ailələrə geyim məmulatları almaq üçün borc verilməsi", "Aclıq çəkən quberniyalara məhsulların poçt və digər vasitələrlə ödənişsiz göndərilməsi" məsələlərinin gündəliyə daxil edilməsini təklif etmişdi [12, s. 43-44]. N.Nərimanov Bakı-Culfa dəmir yolu xəttinin çəkilməsi üçün Moskvaya müraciət etmişdi [2, s.79, №2, 1990].

Bütün bunlar N.Nərimanovun Sovet Azərbaycanın partiya və hökumət liderlərindən biri kimi təsərrüfat-təşkilatçılıq fəaliyyətini əks etdirən faktlar kimi qeyd oluna bilər.

Lakin N.Nərimanovun fəaliyyəti sovet hakimiyyətinin ilk illərində və sonrakı dövrlərdə birmənalı qiymətləndirilməmişdir. N.Nərimanovun fəaliyyətinə olan münasibətlərdəki ziddiyyətlərin səbəbi isə bolşevizmin (*kommunizmin*) təqdimatı ilə təzahürü arasındakı ziddiyyətlərdə axtarılmalıdır. Geniş kütlələrə böyük vədlər və ümid verən bolşevik rejimi bərqərar olduqdan sonra, daha qəddar və amansızlıqlarla bütün səyləri pərdələnmiş və gizli şəkildə yeni imperiyanın qurulmasına yönəltdi. Hadisələrin gedişatı Azərbaycanın yenə də əsarət və məhrumiyyətlərə sürüklənəcəyindən xəbər verirdi. Bu gerçəklik N.Nərimanov və onun tərəfdarları kimi təqdim olunan bir qrup düşüncə sahibləri tərəfindən sovet hakimiyyətinin ilk illərindən dərk olundu və beynəlmiləlçilik xurafatı ilə pərdələnmiş irticadan milli dəyərlərin tək-tək elementlərini və onların ideya daşıyıcılarının qorunması istiqamətində çarəsiz addımlar atılmağa başlanıldı. N.Nərimanov bir çox azərbaycanlı mütəxəssislərin, milli kadrların sovet hakimiyyəti illərində dövlət və təsərrüfat orqanlarında məsul vəzifələrə irəli çəkilməsinə nail olmuşdur. Buna misal olaraq aşağıdakı şəxslərin adlarını çəkmək olar:

Behbud bəy Cavanşir 1902-ci Almaniyaya gedib orada Frayberq Dağ-mədən Akademiyasında təhsil alır, mühəndis ixtisasına yiyələnir. 1907-ci ildə vətənə qayıdır. Şibayevin müəssisələrində çalışır. O, 17 iyun 1918-ci ildə Gəncədə Fətəli xan Xoyskinin yaratdığı hökumət kabinəsinə daxil olur. Behbud bəy Cavanşir 1921-ci ildə yanvar ayında Azərbaycan SSR XKS-nin sədri N.Nərimanovun tapşırığı ilə neft mədən avadanlığı almaq üçün 1 il Almaniyada yaşayır. 1921-ci ildə iyulun 8-də erməni terrorçusu Misak Terlakyanın açdığı gülllədən dünyasını dəyişir. Qatil isə vəkili ilə birlikdə Amerikaya qaçırılır [1, s. 229-230].

Məhəmməd Həsən Hacinski 1918-ci il iyunun 17-də F.Xoyskinin başçılığı ilə yaradılan ilk kabinetdə Xarici və Dövlət Nəzarəti naziri olmuşdur [1, s. 121]. 1919-cu il 24 dekabrda N.Yusifbəylinin başçılıq etdiyi kabinetdə M.N.Hacınski Daxili İşlər Naziri təyin olunur [1, s. 139]. M.Hacınski 1923-cü ildə Zaqafqaziya Dövlət Plan Komitəsi sədrinin birinci müavini təyin olunur. O, Azərbaycanda sənaye şəhərlərinin salınması layihələrinin müəllifidir. Çıxışlarında Daşkəsənin iqtisadi inkişafını önə çəkirdi [1, s.168].

Qarabəy Qarabəyov 1920-ci ildə dekabr ayında "İttihad" partiyasının 155 üzvü ilə birlikdə antisovet qiyamın təşkilatçısı kimi həbs olunur. Onun əmlakı müsadirə olunur və O, Arxangelsk vilayətinə sürgün olunur. 1923-cü ildə Nərimanovun rəsmi göndərişi və Rusiya Fövqəladə Komissarlığının icazəsi ilə Qarabəyov Moskvaya köçür həkim kimi orada çalışır [1, s. 224].

Bu xüsusda daha sonra qeyd etmək lazımdır ki, bəzi tədqiqatçılar tərəfindən sovet hakimiyyəti Gəncə üsyanını qəddarlıqla yatırmasına baxmayaraq N.Nərimanovun S.Mehmandarovu, Ə.Şıxlınskini ölümdən qurtarması, Üzeyir Hacibəyovu məhv ediləcək adamların siyahısından çıxarması, M.A.Pişnamazadəni, Ə.Şərifi həbsdən azad etməsi, hökumət başçısı olarkən H.Z.Tağıyevi qətl və təhqirlərdən xilas etməsi iddia olunur. Tarixi faktlar göstərir ki, məhz N.Nərimanovun səyləri nəticəsində görkəmli azərbaycan ziyalıları - Ə.Haqverdiyev, S.S.Axundov, C.Bağdadbəyov, N.Vəzirov, M.Vəkilov, T.Şahbazi, S.M.Qənizadə, B.Talıblı və S.Mansur hökumət strukturlarında müxtəlif vəzifələrə təyin olunmuşdular. Nümunə üçün qeyd etmək olar ki, N.Nərimanovun təklifinə əsasən Gürcüstanda müsəlmanlar arasında iş aparmaq üçün Komitə yaradılır və sözügedən təşkilata Ömər Faiq Nemanzadə sədr təyin edilir . Eyni zamanda C.Məmmədquluzadə, H.Cavid, Ə.Əzimzadə, S.Mümtaz, A.Şaiq, S.Acalov, Ş.Məmmədova, X.Qayıbova, H.Abbasov, A.M.Şərifzadə, H.Sarabski, R.Təhmasib, A.Divanbəyoğlu (*Sübhanverdixanov*), Əbülfəz Qarayev, S.M.Qənizadə, B.Axundov N.Nərimanovun köməkliyi sayəsində sovet hakimiyyətinin ilk illərində cəza və işgəncələrdən xilas ola bilmişdilər.

N.Nərimanov müsəlmanların dini hisslərinə hörmətlə yanaşılmasını tələb etmiş, din xadimlərinin ərizələrinin baxılmasına həssaslıqla yanaşmış, cümə axşamını müqəddəs saymış, çadraların atılmasında məcburiyyətlərə qarşı olmuş, Təzə Pir məscidinin bərpası və təmiri üçün sərəncam vermiş, Novruz, Orucluq, Qurban bayramları, məhərrəmlik günlərində məscidə ərzaq göndərmiş, dövlət məmurlarını bu tədbirlərdə iştirak etməyə cəlb etmişdir [3, s. 27-28]. Deyilən fikrin təsdiqi kimi qeyd etmək lazımdır ki, N.Nərimanov Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri olarkən onun göstərişinə əsasən Əmək Komissarlığının, Respublika Həmkarlar Şurasının "Kommunist" qəzetinin 21 mart 1921-ci il tarixli qərarına əsasən "Novruz bayramı" münasibəti ilə müsəlman fəhlə və qulluqçular işdən azad edilirdi. Lakin sonradan bu bayrama əksinqilab damğası vuruldu [5, s. 9].

N.Nərimanov yad ünsürlərin müsadirə bəhanəsi ilə Respublika əhalisinin əmlakının qarət edilməsi siyasətinin davamlı xarakterdə olduğunu gördükdə, ərzaq orqanları tərəfindən hətta kasıblarında ev əşyalarının, taxılının, mal qarasının, qarət edilməsi hallarını rüsvayçılıq adlandırmış və müvafiq orqanlardan bunlara son qoyulmasını tələb etmişdi. Qeyd etmək lazımdır ki, son illərdə dərc edilən tarixi ədəbiyyatlarda bütün bunlar, hakimiyyətə gəldikdən sonra kommunist partiyasında müəyyən parçalanmaların ilk əlamətləri kimi dəyərləndirilir və XX əsrin 20-ci illərində kommunist ideologiyası çərçivəsində ortodoks bolşevik (*solçular*) və milli

təmayülçülük hərəkatlarının yaranmasını söyləyirlər. Mütəxəssislər kəskin ideya mübarizəsinin getdiyini və bu mübarizədə N.Nərimanovun milli təmayülçülüyə doğru yönəldiyini qeyd edirlər. Bu fikrin sübutu kimi, 1920-ci ilin oktyabrında Azərbaycan Kommunistlərinin II qurultayında N.Nərimanovun burjuaziya ilə mübarizədə liberallıq göstərməkdə, sahibkarlara güzəştə getməkdə, bir çox məsul vəzifələrə fəhlələrin əvəzinə Azərbaycan ziyalılarını irəli çəkməsi ilə ittiham edilməsini göstərirlər [3, s. 37].

Sovetlər ölkəsində yaranan və inkişaf edən milli təmayülçülər hərəkatında türk dünyasının böyük xadimləri M.Sultanquliyev, S.Maksudi, Z.V.Toğana, V.İbrahimov, Firdevs, T.Rıskılov, S.Seyfulin, Ə.Bukyxanovla N.Nərimanov əlaqə və təmaslar yaratmışdı [4, s. 29]. Qərb tarixi ədəbiyyatlarında N.Nərimanov Azərbaycanda milli təmayülçülərinin mərkəzi fiquru kimi bəxti gətirən bir neçə liderdən biri kimi öz çarpayısında dünyasını dəyişməsi faktı xüsusi olaraq vurğulanır. Lakin N.Nərimanovunda ölümündən az sonra ittiham olunduğu və Lavrentiye Beriyanın məhvindən sonra bəraət qazanmasına diqqət yönəldilir [13, s.91, s.203].

Qeyd etmək lazımdır ki, 1922-ci ildə SSRİ yarandıqdan sonra, N.Nərimanovun idarəetmədə bacarıq və xidmətləri nəzərə alınaraq, Mərkəzi İcra Komitəsinin sədrlərindən biri təyin olunmuşdu. N.Nərimanov 1925-ci ildə müəmmalı şəkildə vəfat etmiş və Kremlin divarında dəfn edilmişdir.

## 3. Nəticə

1920-ci illərdən başlayaraq azərbaycançılıq ideyası və dünyagörüşü varlıq savaşının ciddi mərhələsinə daxil olduğu dövrdə N.Nərimanovun xidmətləri qeyd olunmaya bilməz. N.Nərimanov demokratik sosializm mövqeyini, yəni avropasayağı sosializm sistemini Azərbaycana gətirib. Onun səyi ilə sərbəst ticarət üsulları Azərbaycanda Rusiyadan xeyli əvvəl tətbiq edilib. O, sovet dövlət quruculuğu prosesinin Rusiyadan fərqli olaraq həyata keçməsi, kiçik müəssisələrə toxunmamaq, onların milliləşdirilməsinin qadağan edilməsi, ticarət fəaliyyətinin azad aparılmasının tərəfdarı olmuş, vergilərin tutulmasında özbaşınalıqlara son qoyulmasına çalışırdı. Lakin çox təəssüf ki N.Nərimanov kursunun üstünlük qazanması mümkün olmadı.

## Ədəbiyyat


1. Dadaşov A. Məhəmməd Həsən Hacınski, Bakı: BDU, 2004, 256 s.
2. Əbdülsəlimzadə Q., Əsgərov R.B. Nəriman Nərimanovun ictimai-iqtisadi görüşləri. Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri, Bakı: 1990, № 2, s. 71-81.
3. Həsənov H.Ə. Nəriman Nərimanovun milli dövlətçilik baxışları və fəaliyyəti (*avtoreferat - tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün*), Bakı: 2004, 40 s.
4. Həsənov H. Nəriman Nərimanov milli təmayüllü kommunist. Bakı: Pedaqoqika, 2004, 80 s.
5. Katibli M. 30-cu illərin faciəsi, Ağ ləkələr silinir, Bakı: Azərnəşr, 1991, 200 s.
6. Qəndiliov S.T., Aslanov S.R., Zeynalov Ə.M. və b. XX əsrin siyasi tarixi *(mühazirə kursu*), Bakı: 1991, 412 s.
7. Səmədov K., V.İ.Lenin konsessiyalar haqqında. Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Elmi Əsərləri, Bakı: 1970, №1, s.53-59.


*Mə*

8. Дильбазов А.К. Переход к новой экономической политике в Азербайджане и ее особенности (*к 50-летию НЭП-а*). Ученые записки Института Народного Хозяйства им. Д.Буниатзаде, Баку: 1971, №2, с. 59-67.
9. Дильбазов А.К. Проблемы формирования социалистической промышленности Азербайджанской ССР (*1920-1928 г.г.*), Баку: 1974.
10. История Азербайджана (*в трех томах*), Баку: 1963, т. 3, ч. 1, 538 с.
11. Нариман Нариманов. Избранные Произведения (*в 3-х томах*), Баку: Азернешр, 1989, том 2, 768 с.
12. Создание и укрепление государства диктатуры пролетариата в Азербайджане (*тематический сборник научных трудов*), Баку: 1988, 80 с.
13. Alexandre A., Bennigsen S. Enders Wimbush, Muslim National Communizm in the Soviet Union, The University of Chicaqo, 1979.

**Самандаров Сейфаддин Сабир оглы**
доктор философии по экономическим наукам, НАНА Институт Экономики

## Экономические рассуждения Н.Нариманова и его роль в организации экономических управленческих механизмов в контексте первых годов советизации Азербайджана

### Аннотация

*Цель исследования* - изучение экономических суждений Н.Нариманова и его роль в организации экономических управленческих механизмов в первые годы советизации Азербайджана

*Методология исследования* - ретроспективный подход, метод дедукции, сравнительный анализ.

*Результат исследовании* - изучение историко-экономического наследия.

*Ограничения исследования* - специфичность материала, некоторые трудности, связанные с историческими фактами.

*Практическая значимость исследования* - полезность исторического опыта при определении наиболее эффективных экономических механизмов с учетом экономической безопасности.

*Оригинальность исследования и научная новизна* - исследуемая проблема, некоторые факты впервые вводятся в научный оборот.

**Ключевые слова:** *Азербайджанская экономика, экономическая история, натуральный налог, “чанаг”-налог*

**Samandarov Seyfaddin Sabir oglu**
Ph.D in Economics, Institute of Economy of Azerbaijan National Sciences Academy

## N.Narimanov’s economical thought and its role in the forming of the mechanisms of economical management in the context of social and political events in the first years of sovetization of Azerbaijan

### Abstract

*Purpose* - to research N.Narimanov’s economical thought and role in the forming of the mechanisms of economical management.

*Design/methodology/approach* - the system approach, the comparative analysis, deduction method.

*Finding* - results of research serves to study a historian-economic heritage.

*Research limitations/implications* - specific materials demand to research on wider emprical base.

*Practical implications* - the practical importance of research in accordance historical heritage to determine more efficient economical mechainzms.

*Originality/value* - originality of research and scientific novelty an investigated problem is entered for the first time into scientific turn at the present stage of reforms.

**Key words:** *Azerbaijan economy, economical history, natural tax, the “thanak” tax.*

**JEL Classification Codes:** B14, B26, B31, E02, E21, E23, E62, G28, H2

Məqalə redaksiyaya daxil olmuşdur: 18.07.11.
Təkrar işləməyə göndərilmişdir: 06.08.11.
Çapa qəbul olunmuşdur: 12.12.11.